# "30 il... 44 gün", yaxud həyat dramının yazıçı düşüncəsində görünən tərəfləri

Şair Nəcməddin Mürvətovu ədəbi mühit yaxşı tanıyır. Hətta onun 60 illik yubileyi ədəbi mühitin kifayət qədər təqdir olunan nümayəndələrinin iştirakı ilə Yazıçılar Birliyinin Natəvan klubunda adına layiq keçirilməsi də yadımdadır. Mən həmin tədbirin aparıcısı idim.

Əvvəllər də yazmışam, paytaxtdan kənarda yaşamaq hər hansı bir qələm sahibinə xüsusi imtiyaz vermir. Amma onların, yəni bölgədə - paytaxtdan uzaqlarda yaşayıb sözə xidmət etməyin, ədəbiyyata ömür sərf etməyinfədakarlıq olduğunu danmaq da olmaz.

Nəcməddin Mürvətov 1953-cü ildə Dəvəçi (indiki Siyəzən, keçmiş Xızı rayonun Yuxarı Ələz kəndində) anadan olmuşdur.

Kimin harada anadan olmağı, kimin harada yaşamağı onun hansı istedadla ədəbiyyat yaratmağına o qədər də təsiredici mahiyyət daşımır. Əsas odur ki, müəllif, yəni ədəbi söz sahibi həqiqətən tanrının bəxş etdiyi istedadla əsər yaratmış olsun.

Nəcməddin Mürvətov əzəli və əbədi ixtisası kimi müəllimliyi seçib. Bu yolda o uğurlarına görə əməkdar müəllim adına layiq görülüb. Amma tanrıdan bəxş olunmuş ilhamı ilə poeziya yolunda da yaşadığı əzabları özünə şərəf bilib. Zamanı keçdikcə poetik əsərləri və eyni zamanda poetik esseləri ilə ədəbi mühitimizdə şair kimi tanınıb. Hətta onun daxili-mənəvi yükünü realizə etmək baxımından bir ifadəsini də yada salmaq yerinə düşər; "Bir söz de, şeir yazım". Zənnimcə, bu sözün arxasında dayanan ilhamın və mənəvi gücün nə demək olduğunu hər hansı bir söz bilən oxucu yerindəcə anlayar. Onun istəsək də, istəməsək də dərc olunan kitablarının sırası poetik imkanlarının sərhədləri haqqında qədərincə məlumat verir: "İlk sözüm" (1997), "Etiraf" (2001), "Varım, dövlətim" (2003), "Dünyamıza sözüm var" (2005), "Həqiqət axtarıram" (2006), "Yaxşılar azalmasın" (2008), "İnam zəfərə aparır" (2009), "Ömür adlı payım varmış" (2011), "Ürəklərin sifarişi sözümdə" (2012), "Bircə söz de, şair yazım" (2014), "Nə verdim ki, dünyaya" (2014), "Səsim, ünüm, harayım" (2015), "Dünyamızın zərrəsiyəm" (2016), "Şairdə sirr olmur" (2017), "Bu dağların alim oğlu" (2018), "Səmimiyyət istəyirəm" (2018), "Ümidlə bax gələcəyə, sabaha" (2018), "İnsanlıq" - bir ömür öyrəndiyim fənn" (2019), "Təkcə haqq deyib yaşadım" (2020), Vətən müharibəsi İkinci Qarabağ savaşının siyəzənli şəhidlərinə həsr olunmuş "Ölməzliyin zirvəsində" (2021), "Hissim, duyğum, düşüncəm" (2021) kitablarının müəllifidir". Onu da qeyd edim ki, Nəcməddin Mürvətovun poetik yaradıcılığı mənim və rəhbərlik etdiyim "Kredo" qəzeti əməkdaşlarının həmişə diqqət mərkəzində olub. Onun dəyərli yaradıcılığını əhatə edən "Dağdan dənizə doğru" (2018) kitabımı da elə bu ehtiyatlar əsasında yazmışam.

Heç nəyi izah etmədən hansısa aydın olmaya biləcək bir mətləbə diqqəti yönəltmədən bircə bunu demək istərdim ki, bu qədər kitabın bütövlükdə səhifələrinə sərf olunmuş vaxt və zəhmət tanrı hökmü olmadan başa gələ bilməzdi.

Yeri gəlmişkən, onu da qeyd edim ki, Nəcməddin Mürvətov həmişə müasirlərinin diqqət mərkəzində olub. Onun çoxəhətli yaradıcılığı haqqında İlyas Tapdıq, Nəriman Həsənzadə, Tofiq Nurəli, görkəmli tənqidçi alimlərimiz Vaqif Yusifli, Qurban Bayramov, Nizaməddin Şəmsizadə, Məhəmmədli Mustafayev, eyni bölgədə yaşayıb-yaradan yazarlardan Aydın Tağıyev, eləcə də, Musa Ələkbərli, Sadıq Elcanlı və digərləri Nəcməddin Mürvətovun yaradıcılığına bu və ya digər tərəfdən yanaşmaları ilə aydınlıq gətirməyə çalışmış, onun söz adamı olduğunu öz əsərlərinin təhlili ilə əsaslandırmışlar.

Bütün bunları nə üçün yazıram? Yəni Nəcməddin Mürvətov ədəbi mühitin həmişə diqqətində olub, demək, onun yaradıcılığı diqqəti çəkən olub.



Nəcməddin Mürvətovun şeirlərində həyat hadisələri demək olar ki, həmişə gərgin dramatik fonda verilir. Onun şeirlərində dramatizm həmişə oxucunun diqqətini cəlb edir. Müxtəlif tərəflər qarşılaşdırılır, ayrı-ayrı obrazlar öz nitqləri ilə şeirə daxil olur. Beləliklə, təkcə poetik yox, həm də dramatik bir mənzərə görünür.

Bütün bunlar sanki onun varlığında yeni bir janra, yeni bir özünüifadə imkanına yol açır. Elə onun esselərində də ziddiyyətli məqamların üz-üzə gəlişi dramatik mənzərə yaradır. Qara və ağ, işıq və zülmət, sevinc və kədər müəllif hisslərinin ifadəsi kimi üzə çıxır. Bir sözlə, bütün bunlar sanki Nəcməddin Mürvətovun yeni yaradıcılıq mərhələsinə daşındığından xəbər verən elementlərdir. Axır ki, Nəcməddin Mürvətov ədəbi mühitə yeni janrda bir əsəri ilə daxil olduğunu göstərdi.

"Otuz il, qırx dörd gün" pyesi Nəcməddin Mürvətovun yeni əsəridir. Müəllif üçün öz qələmini yeni janrda sınamaq istəyindən irəli gəlmir bu əsərin yazılması, onun daxili-mənəvi tələbatından irəli gəlir. Görünür, müəllif vətən müharibəsi xronikasını izləyərkən sadəcə seyirçi mövqeyi tutmayıb. Hadisələrin özü ilə birgə daxili-mənəvi mühiti ilə müharibənin içərisində olub. Bu da ona imkan verib ki, yaşadığı mühiti, həyəcanları, sarsıntıları və ən başlıcası, tarixi gerçəklikləri ilə birgə yazıya gətirsin.

Pyes iki hissədən ibarətdir. Əsərin birinci hissəsi "Birinci Qarabağ müharibəsi" adlanan dövrü əhatə edir.

Bu yerdə bəzi məqamlara işıq salmaq lazımdır. Nəcməddin Mürvətov mənim həmyaşıdımdır. Mən nə qədər həmin dövrün şahidiyəmsə, Nəcməddin Mürvətov da o qədər şahiddir. Fərqimiz təkcə burasındadır ki, mən bilavasitə Qarabağ hadisələrinin içərisində olmuşam və o mübarizənin fədakarlığını inkar etmədən deyirəm ki, həmin mübarizə qələbəyə də apara bilməzdi və bu reallığı Nəcməddin Mürvətovun "Otuz il, qırx dörd gün" pyesinin birinci hissəsində tam reallığı ilə görə bildim. Və üstəlik şair dostumun dövrün həqiqətlərinə reallıqla yanaşmasına da sevindim. Zənnimcə, burada sevinmək sözü azdır. Bu həqiqətləri demək, hətta indiki zamanımızda belə xüsusi mərdlik tələb edir və bu mərdliyi Nəcməddin Mürvətov qələminə sadiqliyi ilə sübut edir. Doğrudur, əsərin baş verdiyi hadisələrin yeri müəyyən göstəricilərə əsasən Bakı şəhərini nişan verir. Ancaq elə bilirəm ki, bu hadisələrin əsas məkanı elə Nəcməddin Mürvətovun yaşadığı əyalətin özüdür. Əgər bir qədər mübahisə doğuracaq fikirdirsə, onda deyirəm ki, Cəbrayılın özüdür, Qarabağın özüdür və əlbəttə ki, həm də Bakının özüdür. Nəcməddin Mürvətov "Otuz il, qırx dörd gün" əsərində tarixi həqiqətə sadiq qalıb.

Birinci hissədə biz obrazların hadisələrə münasibətində ikili bir mövqe hiss edirik.




Qüdrət baba obrazı əsas varislik nümunəsi olaraq diqqəti cəlb edir. O İkinci Cahan Savaşının iştirakçısıdır. Qəhrəman zabit kimi istefaya çıxıb. Şübhəsiz, həm də İkinci Cahan Savaşı ilə, yəni daha əvvəlki müharibə ilə yeni müharibə arasında əsas özüldür və çox təəssüf ki, o, təkliyi ilə həm də cəmiyyətdə tarixi prosesə münasibət baxımından o qədər də hökmlü deyil. Çünki yeni nəsil artıq əvəlki tarixi mərhələdən populist təbliğatlarla ayrılıb. Adamlar Qüdrət kişi kimilərinin müharibəyə münasibətinə bir qədər ironik yanaşırlar. Amma hər halda Nəcməddin Mürvətovun əsərində belə bir həqiqət də özünü göstərir ki, Qüdrət kişidən sonrakı nəsildən fərqli olaraq yeni gələn gənc nəsil vətənə təcavüzlərə biganə deyil.

Əlbəttə, Qüdrət kişidən sonrakı nəsildə də hamını inkar yoxdur. Məsələn, hərbi komissar Eldar oğlunun döyüşə can atmasına təbii yanaşır. Onun qızı Gülnaz, oğlu Emin sanki Qüdrət kişinin tərbiyəsindən keçir. Hətta Qüdrət kişinin öz nəvəsi Ayaz anasının istəklərindən kənara çıxır. Biz bu gənclərin timsalında sözün həqiqi mənasında milli duyğuların özünü diktəsini görürük. Birinci hissədə gənc Fikrət döverün hadisələrinə biganə, vətən mahiyyəti haqqında heç düşünməyən bir obraz kimi görünür.

Əsərin birinci hissəsi həm Eldar və Nazlının oğlu Eminin, həm də Rüstəm və Sonanın oğlu Ayazın müharibəyə gedişi ilə ictimai düşüncənin kifayət qədər gücünü göstərir. Bu əsərdə iki ailənin timsalında biz formalaşmış gəncliyi görürük və bu iki ailəni bir-birinə bağlayan Gülnaz obrazının fəallığını xüsusilə qeyd etməliyik. Əsərin birinci hissəsinin sonunun Qarabağ uğrunda müharibənin və mübarizənin ümid motivləri ilə bitdiyini görürük. Bu sonluqda Gülnazın daha fəal olduğu və eyni zamanda yazçı mövqeyi də bu fəallıqda özünü göstərir. Müəllif sanki demək istəyir ki, milli düşüncədə Qarabağ obrazının yaşamasına ədəbiyyatımız və incəsənətimiz də kifayət qədər kömək edib. Sanki ədəbiyyatımız, musiqimiz, bir sözlə, incəsənətimiz vətən uğrunda - Qarabağ uğrunda dövlət siyasətimizlə birgə vuruşub, mübarizə aparıb. Qarabağ düşüncəsinin yaşarlığına təminat verib. Bu mühitin, bu mənəvi düşüncə yolunun əsas daşıyıcıları kimi biz əsərdə Gülnazı (bəstəkar) və Mənsur Qəribi görürük. Bir qədər epizodik xarakter daşısa da, Alim Mərdanı da ziyalıların ümumiləşmiş obrazı kimi görmək olar. Özü də Mərdan Qarabağ ziyalılarının təmsilçisi kimi əsərdə görünür.

Əsərin ikinci hissəsi 30 ildən sonrakı hadisələrə həsr olunub. Artıq Qüdrət baba həyatda yoxdur. Birinci Qarabağ müharibəsinin döyüşçüləri kimi görünən obrazlar Ayaz və Emin artıq yaşa dolmuş atalardırlar. Ayaz Eminin bacısı Gülnazla evlənib. Onların övladları var. Ayazla Gülnazın Qüdrət və Orxan adlı oğulları, Emin və Şəhlanın Aqşin adlı oğlu var. İkinci Qarabağ savaşında həm Qüdrət, həm Orxan, eləcə də Aqşin savaşın ön cərgəsindədirlər. Əsərin ikinci hissəsində şair Mənsur Qərib, onun həyat yoldaşı Zivər, qızı Aysu artıq ön plana çıxır. Zənnimizcə, bu da müəllifin müharibədə söz, ədəbiyyat adamlarının roluna münasibəti ilə bağlıdır.

Ayrı-ayrı məqamlarda Prezidentin - Ali Baş Komandanın Qarabağ savaşı boyunca müharibə dövründə xalqa müraciətləri, cəmiyyətlə canlı təmasları da əsərdə kifayət qədər aydınlığı ilə görünür.

Əsərin döyüş xronikası kifayət qədər canlıdır. Hətta bəzi məqamlarda oxucunu qədərindən artıq həyəcanlandırır. Bəlkə də müəllifi hadisələri dramaturqluq səriştəsizliyində qınamaq motivləri də ola bilər, amma hadisələrə real münasibət baxımından onu qınamaq yeri qətiyyən görünmür. Çünki müəllif əsər boyu tarixi xronikanı dəqiq izləyir. Hadisələri hər bir Azərbaycan ailəsinin keçirdiyi həyəcanlara uyğun təsvir edir. Və bu yerdə etiraf edirəm ki, əsərin müharibə səhnələrini, yaralıları gözləmək, oğulları müharibədə olan ataların və anaların həyəcanlarını göstərmək məqamlarını oxuduqca, sanki özümü həmin günlərin iştirakçısı kimi təzədən gördüm. Axı mənim də nəvələrim həmin günlərdə döyüşdə idi və hər bir telefon zəngində hansı xəbəri ala biləcəyimizin qabaqcadan gələn həyəcanları varlığımıza hakim olurdu. Bu hissləri yaşamayan adamlar üçün yəqin ki, mənim sözlərimin də bir kəsəri olmaz.

*(Davamı 15-ci səhifədə)*

*(Əvvəli 9-cu səhifədə)*

Nəcməddin Mürvətov öz obrazlarının timsalında müharibə xronikasını dəqiq izləyir. İşğaldan azad olunmuş hər bir ərazinin xronikasını mötəbər mənbə kimi Prezidentin tvitləri ilə izləyir. Bu həmin dövrdə hər bir azərbaycanlının yaşadığı hisslərdir və kənardan heç nə yoxdur.

Əsər boyu Azərbaycan insanının müharibənin təsiri ilə necə dəyişdiyini də görə bilirik. Məsələn, əsərin əvvəlində (I hissəsində) avara təsiri bağışlayan Fikrəti əsərin sonunda (II hissəsində) fəal obraz kimi görürük. Hətta onun oğlunun qəhrəmanlığını, özünün cəbhə üçün fədakar münasibətini qiymətləndirmək belə adi sözlərlə mümkün deyil. Bu da onu göstərir ki, çətin məqamda Azərbaycan xalqı birləşməyi də bacarır.

Fikrət yeni nəsil burjuaziyanın övladıdır. O, müharibədə ordumuza kömək etmək üçün bütün imkanlarından istifadə edir. Oğlu intellektual şəxs olduğuna görə PUA-ları idarə edəndir. Özü bütün maddi imkanlarını orduya kömək üçün əsirgəmir. Hətta bu yerdə onun bir cəhətini də qeyd etməliyik. Fikrət



ədəbiyyata da biganə qalmır. Şair Mənsur Qəribin kitabının çapına da yardımçı olur.

Zənnimcə, Nəcməddin Mürvətov Mənsur Qərib və Fikrət obrazlarının əsərə gətirilməsində dövrümüzün müəyyən mənəvi problemlərini də dövrümüzün adamlarına da çatdırmaq istəyib; şair əsər yaradır, amma çap etdirə bilmir. Hansısa bir ağıllı iş adamı bu problemi həll edə bilir. Demək, dünya ilə mənəvi müstəvidə eyni yerdə bizim dayana bilmək imkanımız da oa bilər. Əsər “Zəfər marşı” ilə sona çatır.

Mənsur Qəribin şeirləri əsərə xüsusi bir ruh bəxş edir. Sanki müəllif bununla demək istəyir ki, həyatımız ədəbiyyatdan kənarda deyil. Əsərin sonunda “Dəmir yumruq”un təntənəsi də özünü göstərir. Ən başlıcası, artıq qohumluq telləri ilə bir-birinə bağlanmış insanlar Qüdrət babanın məzarı üstünə gəlir və ona qələbəmiz haqqında mənəvi hesabat verirlər.

Zənnimcə, “Otuz il, qırx dörd gün” əsəri “Dəmir yumruq”un zəfər qələbəsinin möhtəşəm tarixi haqqında uğurlu yaddaş salnaməsidir.

Nəcməddin Mürvətov bu yeni əsəri ilə Qarabağnamələr silsiləsinə öz töhfəsini vermiş oldu. Əsər daxili-mənəvi mühitindəki enerji ilə oxucusunu həmişə həyəcanlandıracaq. Heç şübhəsiz, gələcək nəsillər də bu əsəri Qarabağ tarixinin bir hissəsi kimi məmnunluqla oxuyacaq, onun təqin etdiyi ideyaları əxz edəcək.

***Əli Rza* Xələfli**

***01.08.2022***